**“Şəki Regional Məsləhət Mərkəzi”nin 2007-ci ildə və 2008-ci ilin birinci yarısında gördüyü işlərə dair**

# Hesabat

Keçmiş Sovetlər birliyinin dağıldıqda sonra Müstəqil Azərbaycan Dövləti də ittifaqın digər respublikaları kimi gələcək inkişafı üçün bazar iqtisadiyyatı yolunu seçdi.

Beləliklə cəmiyyətin bütün sahələrində olduğu kimi Aqrar sahədə də islahatlara başlandı.

Aqrar islahatlarla əlaqədar tələb olunan qanunlar və digər normativ hüquqi aktlar əsasında əmlak və torpaq kəndlilərə qaytarıldı. Sosializmə xas olan qurumlar-kolxoz və sovxozlar ləğv edildi.

Aqrar islahatların birinci mərhələsi müvəffəqiyyətlə başa çatsada sahibkarlara çevrilən kəndlinin maariflənməsi- yəni sahibi olduğu torpaqdan səmərəli istifadə etmək və istehsal etdiyi məhsulun satışının səmərəliyini təmin etmək üçün bilik və bacarıq qabiliyyətinin formalaşması tələbi yarandı.

Müstəqil Azərbaycan Dövlətinin qurucusu-umummilli liderimiz H.Əliyevin cəsarətlə başladığı Aqrar islahatlar davam etdirməklə ölkənin iqtisadiyyatının Dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə əsaslanan svil yolla inkişaf etdirmək məqsədi ilə Beynəlxalq təşkilatlarla əməkdaşlığa üstünlük verildi və aqrar sahəyə dair bir sıra Layihələr həyata keçirilməyə başlanıldı.

Bu Layihələrdən biri və ən əsası Dünya Bankı ilə Azərbaycan Hökuməti arasında bağlanmış müqavilə əsasında həyata keçirilən “Kənd Təsərrüfatının İnkişafı və Kreditləşməsi Layihəsi”dir.

Bu proqramın ən ümdə məqsədi Azərbaycan Respublikasının fermer təsərrüfatındakı durumu və inkişafı, keçid dövrünün yeni nailiyyətlərinin tədbiq edilməsi, yəni bazar iqtisadiyyatı qanunlarına uyğun olan şəxsi fermer təsərrüfatları qrupları və ailələrinin yaradılması vasitəsilə Aqrar sahəni əvvəlki yüksək səviyyəyə qaldırmaqdan ibarətdir.

“Şəki Regional Məsləhət Mərkəzi” 2002- ci ildən fəaliyyətə başlamaqla həmin dövrdə Azərbaycan Respublikası Kənd Təsərrüfatında Özəl Bölmənin İnkişafına yardım Agentliyinin, 2005-ci ilin may ayından 2006-cı ilin iyul ayının 1-dək Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyinin tabeliyində dövlət qurumu kimi , ondan sonrakı dövrdə Qeyri Dövlət Təşkilatı kimi “Şəki Regional Məsləhət Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyət formasında Layihənin, “İnformasiya və məsləhət xidməti” komponentinin Şəki-Zaqatala bölgəsinə daxil olan 5 rayonda (Oğuz, Şəki, Qax, Zaqatala və Balakən) həyata keçirir.

Layihənin birinci mərhələsində tələb olunan baza yaradılmış RMM regionda mövcud olan 248 kəndində yaşayan 88223 nəfər torpaq mülkiyyıtçilərinə İnformasiya və məsləhət xidməti göstərmiş, 164 adda informasiya materialı hazırlanaraq 46670 nəfər torpaq mülkiyyıtçisi arasında yayımlanmışdır. Fəaliyyət dövründə aktual məsələlər barədə dövrü mətbuatda materiallar verilmiş, radio və televiziyada çox saylı çıxışlar edilmişdir.

Məlum olduğu kimi Layihənin I mərhələsi (uzadılmış dövrlərdə daxil olmaqla) 2006-cı ilin sonunda başa çatmış, 2007-ci ilin əvvəlindən Layihənin ikinci mərhələsi hesab olunan və fermerlərin və digər sahibkarların bitkiçilik və heyvandarlıq sahəsi üzrə məhsuldarlığı və gəlirləri artırmaq məqsədli "İkinci Kənd Təsərrüfatının İnkişafı və Kreditləşməsi" Layihəsinin icrasına başlanmışdır.

Layihənin İnformasiya və məsləhət xidməti komponentinin regionda davam etdirmək məqsədi ilə Agentliklə "Şəki Regional Məsləhət Mərkəzi" MMC arasında 2007- 2008-ci illər üçün 8.01.2007-ci il tarixli müqavilə bağlanmışdır. "Şəki RMM" Agentliklə bağlanmış müqavilə şərtlərinə, Əməliyyat təlimatına və maliyyə smetasına uyğun olaraq Direktor, mühasib və müqavilə əsaslı 3 nəfər mütəxəssis (təlim və monitorinq üzrə mütəxəssis, informasiya və əlaqələr üzrə mütəxəssis, internet saytı üzrə mütəxəssis), operator və 3 nəfər texniki işçi ilə fəaliyyətə başlamışdır. Mütəxəssislərin xidmət sahəsi üzrə əməliyyat təlimatına uyğun texniki tapşırıqları təsdiq edilərək müqavilələrə əlavə edilmişdir. 2007-ci ildə və 2008-ci ilin I yarısında Mərkəz Agentlik tərəfindən verilmiş "Kənd Təsərrüfatı Yayım xidmətlərinin idarə edilməsi üzrə Əməliyyat Təlimatı"nın və Agentliklə bağlanmış müqavilənin texniki tapşırığının tələblərinə uyğun fəaliyyət göstərmişdir. Müddət ərzində Agentlik tərəfindən verilən təlimat çoxaldırılaraq RMM-in mütəxəssislərinə və Özəl Məsləhətçilərə paylanmış və onun öyrənilməsi üzərində nəzarət edilmişdir. 2007-ci ilin aprel ayında Agentliyin təlimatçıları tərəfindən RMM-in mütəxəssisləri və Ö.M-ləri "İkinci Kənd Təsərrüfatının İnkişafı və Kreditləşməsi Layihəsi"nin "İnformasiya və məsləhət xidmətləri üzrə Əməliyyat Təlimatları" ilə əlaqədar 10 gün seminar keçirməklə sonda iştirakçıların bilikləri qiymətləndirilmişdir.

"Şəki RMM" MMC 17 nəfər ÖM vasitəsilə regionda mövcud 248 kənd və qəsəbədə kənd təsərrüfatı ilə məşğul olan 88388 ailə kəndli fermer təsərrüfat üzvlərinə informasiya və məsləhət xidməti göstərir. Bunun üçün icarə qaydasında 17 kənd Təlim Nərkəzi yaradılmışdır. Kəndlər ərazi üzrə ailə kəndli fermer təsərrüfatlarının sayına uyğun bölünərək ÖM-lərə təhkim edilmişdir. 1 yanvar 2007- ci il tarixə mövcud 14 nəfər (3 nəfər ÖM-i dəyişilib) ÖM hər biri texniki tapşırıqda nəzərdə tutulan 3 qrupa qarşı 5 XMQ, yeni 3 nəfər

ÖM-in hər birində isə 3 qrup olmaqla cəmi 79 XMQ yaradılmışdır. XMQ-lar regionun 52 kəndini əhatə etmişdir ki, bu da kəndlərin ümumi sayının 21 %-ni təşkil etmişdir.

Bu qrupların 14-ü taxılçılıq, 2-si qarğıdaçılıq, 7-si meyvəçilik (əsaən fındıqçılıq), 41-i südlük maldarlıq, 7- si qoyunçuluq, 2-si quşçuluq, 4-ü arıçılıq və 1- i tərəvəzçiliklə məşğul olur. 79 qrup özündə 1830 nəfəri birləşdirir ki, bunlardan 308 nəfər taxılçılıqla, 50 nəfər qarğıdaçılıqla, 215 nəfər meyvəçiliklə, 918 nəfər südçülüklə, 172 nəfər qoyunçuluqla, 46 nəfəri quşçuluqla, 101 nəfər arıçılıqla və 20 nəfər tərəvəzçiliklə məşğul olur.XMQ-da cəmləşən 1830 nəfərin 280 nəfəri qadındır. Bu qruplarda birləşən ailə kəndli təsərrüfatlarında 1315 ha taxıl, 25 ha qarğıdalı, 247,5 ha meyvə (fındıq) bağı, 2,7 ha tərəvəz, 2622 baş südlük mal, 9146 baş qoyun, 1585 quş və 1169 arı ailəsi mövcud olmuşdur. XMQ-larla ÖM-lər arasında Təlimata uyğun Məsləhət Layihələri bağlanmış və qarşılıqlı öhdəliklər əsasında qrup üzvləri təlimlərdə, Texnologiyaların birgə nümayişində iştirak etmiş, informasiya materialları ilə təmin edilmiş, aidiyyatı üzrə nümayiş sahələrində və ET müəssisələrində iş üstündə nümayişləri təşkil etmişdir.

XMQ ilə ÖM-lərin işinin əlaqələndirilməsi, informasiya və məsləhət xidmətinin səmərəliyinin artırılması məqsədi ilə Təlimatın tələblərinə uyğun XMQ yaradılan kəndlərin hər birində 1 KDQ yaradılmışdır.

XMQ-lər tərəfindən müqavilə şərtlərinə uyğun ÖM-lərə mərhələli şəkildə xidmət haqqı ödənilmiş, sonda XMQ üzvlərinin bilik və səriştə qabiliyyətləri qiymətləndirilərək son ödəniş aparılmışdır. 2007-ci ildə regionda xidmət göstərilmiş XMQ-lər üzrə taxıl istehsalı 23,4 %, süd istehsalı 23,7 %, qarğıdalı istehsalı 26 %, tərəvəz istehsalı 25,9 %, meyvə istehsalı 25,7 %, yun istehsalı 23,7 %, yumurta istehsalı 25,6 % və bal istehsalı 22,8% artmışdır.

Kəndlərdə fəaliyyət göstərən 17 Kənd Təlim Nərkəzinin İnformasiya güşələri kəndlərdə fəaliyyət göstərən ailə kəndli təsərrüfatlarının və sahibkarların əsas məşğuliyyət sahələri və tələbləri əsasında tərtibinə fikir verilmişdir. Agentlikdən verilmiş "Kənd Təsərrüfatının İnkişafı və Kreditləşməsi" Layihəsi çərçivəsində keçirilmiş informasiya kompaniyasının materialları, Agentlik tərəfindən verilən digər regionların RMM-ilə mübadilə əsasında əldə edilən, RMM tərəfindən hazırlanan informasiya materialları və digər materiallar güşələrdə yerləşdirilmiş və aidiyyatı üzrə ailə kəndli təsərrüfatları üzvləri arasında yayımlanmışdır.

İl ərzində müqavilə şərtlərinə və texniki tapşırığa uyğun olaraq 816 bir günlük təlim kursu keçirilmişdir. Təlim kursları XMQ üzvləri və ailə kəndli fermer təsərrüfatı üzvlərinin və sahibkarların ehtiyacları əsasında təşkil edilmişdir. Bu təlimlərdə 8160 nəfər iştirak

etmişdir. Eləcədə Texniki tapşırığa uyğun olaraq ayda hər ÖM hesabı ilə 5 "Texnologiyaların birgə nümayişi" proqramı həyata keçirilmişdir ki, bu nümayişlərdə 9180 nəfərə qarşı 10576 nəfər iştirak etmişdir. Bundan əlavə 2007- ci ildə 4854 nəfərə fərdi məsləhətlər verilmiş, 23239 nəfərə bazar qiymətləri çatdırılmış, 3553 nəfər fermer klublarında qabaqcıl təcrübəyə dair video materiallara baxmış, 5405 nəfər alıcı və satıcı axtaran fermerə köməklik göstərilmişdir.

Təlim kurslarında və texnologiyaların birgə nümayişi proqramlarında iştirak edənlərin 11170 nəfəri gənclər, 3199 nəfəri qadınlar olmuşdur.

Yaradılan 93 təcrübə və sınaq –nümayiş sahələri ərazidə digər mülkiyyətçilərin təsərrüfatlarında məhsul istehsalına, işin təşkilinə, məhsulun keyfiyyətinə görə fərqlənən və yeniliyi tədbiq edən sahələr seçilmiş və həmin sahələrə ETƏİ Şəki Dayaq məntəqəsi, Zaqatala ZTS və ET bağçılıq inistitutunun Zaqatala Dayaq məntəqəsinə 1020 nümayiş təşkil edilmişdir. Bu nümayişlərdə 10576 nəfər iştirak etmişdir. RMM-in iş planına uyğun olaraq Layihədən maliyyəşən 7 qarğıdaçılıq və 18 taxılçılıq üzrə təcrübə və sınaq nümayiş sahəsi təşkil edilmişdir. "Elmi Tədqiqat Əkinçilik inistitutunun taxılçılıq sahəsində Elmi Tədqiqat işlərinin nəticələrinin və yeni işlənilən texnologiyaların KTİKL-yə uyğunlaşdırılmış texnologiyalara çıxışın təkmilləşdirilməsi" (tədqiqat xidmətləri) yarımkomponenti çərçivəsində fermer təsərrüfatlarında, torpaq mülkiyyətçilərinin sahələrində ETƏİ tərəfindən 1 qarğıdaçılıq və 3 taxılçılıq üzrə təcrübə və sınaq nümayiş sahəsi təşkil edilmişdir.

İl ərzində RMM üzrə regionda mövcud olan 248 kəndin 86- sı və ya 36,4 %-i xidmətə cəlb edilmiş, 22491 nəfərə qarşı 31545 nəfərə və ya ümumi torpaq mülkiyyətçilərinin 35,7 %-inə xidmət göstərilmişdir.

RMM-in iş planına uyğun olaraq 6 adda 89520 nüsxə informasiya materialları çap edilərək fermerlərə yayımlanmaq məqsədilə ÖM-lərə paylanmışdır.

Bundan əlavə Agentlik tərəfindən həyata keçirilən 7 adda informasiya kompaniyalarına dair təkrar çap olunan 10065 ədəd informasiya materialı və Agentlik tərəfindən Layihə çərçivəsində çap olunmuş 3 mövzuda 4050 nüsxə kitabça və Aqromarketinqin təşkili və idarə edilməsinə dair 4 adda 680 kitabça ailə kəndli təsərrüfatları üzvlərinə və sahibkarlara paylamaq üçün ÖM-lərə verilmiş, həmçinin RMM-in informasiya güşəsinin və Kənd Təlim mərkəzlərində informasiya guşələrini zənginləşdirmək üçün istifadə edilmişdir.

İl ərzində 222 nəfər ailə kəndli təsərrüfat üzvünə ödənişli fərdi məsləhət xidməti göstərilmişdir. Bu xidmətdən 1257 manat vəsait daxil olmuşdur. Eləcədə 1830 nəfər XMQ

üzvlərindən 5530 manat , 103 BB qruplarında 1798 nəfər kredit alan üzvlərdən xidmət haqqı hesabına 9064 manat olmaqla ödənişli xidmətdən 15851 manat vəsait daxil olmuşdur ki, onun da 12681manatı ÖM-lərə xidmət haqqına verilmişdir. Bu da orta hesabla hər ÖM-yə 745, 94 manat və ya ayda 62,16 manat təşkil edir.

"Şəki RMM" müddət ərzində Respublikanın digər regionlarında fəaliyyət göstərən RMM-ləri ilə Elmi Tədqiqat inistitutlarının regionda yerləşən Elmi müəssisələri ilə və Layihənin digər komponentləri ilə əməkdaşlıq etmişdir. Layihənin kredit komponenti ilə daha fəal əməkdaşlıq etmiş, BB qruplarının formalaşmasında, onlara kreditin verilməsi üçün tələb olunan sənədlərin hazırlanmasına və kreditdən səmərəli istifadə etməsinə dair fermerlərə xidmətlər göstərməklə kreditlərin qaytarılmasında İKA-nın yerli nümayəndəliyinə yaxından köməklik göstərilmişdir.

"Şəki RMM" MMC öz fəaliyyətini Agentliyin İMM-ilə əlaqəli həyata keçirir. Müddət ərzində Layihənin rəhbərliyi və İMM tərəfindən verilən tapşırıqları operativ yerinə yetirməyə çalışır. Tələb olunan aylıq, rüblük, texniki və maliyyə hesabatları vaxtlı-vaxtında aidiyyatı mütəxəssislərə təqdim edir.

"Şəki RMM" MMC ilə Agentlik arasında bağlanan müqaviləyə əlavə edilmiş 2007- ci il üçün xərc smetası 130650 manat təşkil etmiş, il ərzində ondan 129405,85 manatı və ya 99 %-i xərclənmişdir. İl ərzində xərc maddələrinə görə artıq xərcə yol verilməmişdir. Qənaət edilən 1244,15 manatın 378 manatı KTM-lərin icarə haqqı və 866,15 manatı təsərrüfat xərcləri hesabınadır. Regionda fəaliyyət göstərən ÖM-lərlə birgə əməkdaşlıq qurmaq məqsədi ilə RMM üzrə 5 nəfərdən ibarət RMŞ yaradılmışdır. Şuranın 30 mart 2007-ci il tarixli yığıncağında Şuranın sədri seçilmiş və 2007- ci il üçün iş planı və əsasnaməsi təsdiq edilmişdir. Şura illik iş planına uyğun olaraq 4 dəfə yıcıncaq keçirərək, RMM-in illik, rüblük iş planlarını, yarımillik, 9 aylıq və illik hesabatlarını müzakirə edərək təsdiq ermişdir.

İl ərzində Agentliyin mütəxəssisləri tərəfindən regiona səfərlər edilərək Layihənin həyata keçirilməsi ilə əlaqədar RMM-in mütəxəssisləri və ÖM-lərə köməklik göstərilmiş və ilkin fəaliyyət qiymətləndirilərək mərhələli ödənişlər edilmiş, noyabr ayında MTQ-nin mütəxəssisləri tərəfindən aralıq monitorinq keçirərək ÖM-lərin fəaliyyəti 63,8 balla, RMM-in fəaliyyəti 93,8 balla qənaətbəxş qiymətləndirilmişdir. Eləcədə Layihənin davamı ilə əlaqədar tövsiyyələr vermişlər. RMM üzrə Monitorinqin nəticəsinə görə verilmiş tövsiyyələrin yerinə yetirilməsi məqsədi ilə tədbirlər planı hazırlanaraq təsdiq edilmişdir. Monitorinqin nəticələri RMM-in mütəxəssisləri və ÖM-rin iştirakı ilə geniş müzakirə edilərək onlara gələcək fəaliyyət üçün müvafiq tapşırıqlar verilmişdir.

2008-ci ilin birinci yarısında Şəki RMM Agentliklə bağlanmış müqavilə şərtlərinə, texniki tapşırığa və Kənd Təsərrüfatı yayım xidmətlərinin idarəedilməsi üzrə Əməliyyat Təlimatına uyğunfəaliyyətini davam etdirmişdir.

2008- ci ilin birinci yarısında təsdiq olunmuş iş planına uyğun XMQ üzvlərinə və fermerlərə 408 birgünlük təlim kursu keçirilmiş və 510 Texnologiyaların birgə nümayişi proqramı həyata keçirilmişdir. Təlim kurslarında 4080 nəfər və Texnologiyaların birgə nümayişi proqramlarında 5393 nəfər iştirak etmişdir. Bundan əlavə nəfərə fərdi məsləhət xidməti göstərilmiş və 1156 nəfərə informasiya materialları yayımlanmış, nəfərə bazar qiymətləri çatdırılmışdır.

Müddət ərzində135 nəfərə ödənişli məsləhət xidməti göstərilmiş, XMQ üzvlərindən 7676,64 manat və fərdi məsləhət alanlardan ÖM-lərə 1110 manat xidmət haqqı ödənilmişdir ki, onun da 20 %-i, yəni 1757,33 manatı dəsdək xidmətləri üçün RMM-ə ödənilmişdir.

Cari ilin birinci yarısında 2007-ci ilin I yarısı ilə müqayisədə XMQ-lərdən ödənişlər 3252,64 manat, yəni 73,5 % və fərdi ödənişli xidmət müqavilələrindən gəlir 484 manat və ya 77,3 % artmışdır.

2008-ci ilin birinci yarısında bölgədə fəaliyyət göstərən 17 nəfər ÖM-nin hər birinə 5 qrup olmaqla 85 XMQ yaradılmışdır ki, onların 15-i taxılçılıq, 5- i qarğıdaçılıq, 12-si meyvəçilik, 3-ü tərəvəzçilik, 1-i bostançılıq, 24-ü südlük maldarlıq, 13-ü qoyunçuluq, 11-i quşçuluq, 1-i arıçılıq sahəsi üzrədir. Qrup üzvlərinin 325 nəfəri taxılçılıqla, 114- nəfəri qarğıdaçılıqla, 60 nəfəri tərəvəzçiliklə, 294 nəfəri meyvəçiliklə, 20 nəfəri bostançılıqla, 526 nəfəri südlük, 276 nəfəri qoyunçuluq, 232 nəfəri quşçuluqla, 20 nənəfəri arıçılıqla məşğul olur.

Bu ilin birinci yarısında müqavilə şərtlərinə əsasən XMQ-da 1280,5 hektar taxıl, 129,5 hektar qarğıdalı, 56,5 hektar tərəvəz, 390 hektar meyvə bağı (əsasən fındıq), 41 hektar bostan becərilir və 1845 baş südlük mal, 7981 baş qoyun-keçi, 14561 baş quş və 325 arı ailəsi bəslənir. Bu qruplarda 1864 nəfər ailə kəndli fermer təsərrüfatının üzvü birləşir. Qrupda fermerlərin orta sayı 22 nəfər təşkil edir. XMQ üzvlərinin 365 nəfəri və ya 19,6 %-i qadınlardır. XMQ ilə bağlanmış müqavilələrin dəyəri 31986 manat təşkil edir. Cari ilin birinci yarısında müqavilə şərtlərinə əsasən ÖM-lərə ödənilməli (müqavilə dəyərinin 30 %-i hesabına) məbləğin I və II ödənişdə 80 %-i, yəni 7676,64 manatı ÖM-lərə ödənilmişdir.

Müddət ərzində 1 nəfər ÖM yenisi ilə əvəz edilmiş, 2 nəfərin ÖM-lərin hazırlıq kursunda iştirakı təmin edilərək onlara sertifikat verilmişdir.

Əməliyyat Təlimatına uyğun olaraq regionun 16 nəfər ÖM-yə kompyuter (nootbuk) verilmiş, onlara Agentliyin mütəxəssisləri tərəfindən 3 günlük təlim kursu keçirilmişdir.

ÖM-lərin kompyuterdən istifadə etmək bacarığını artırmaq, onların internet saytından istifadə etmək, informasiya qəbul etmə və ötürmə qabiliyyətini artırmaq üçün RMM-in İnternet saytı üzrə mütəxəssisi onlarla daimi iş aparır.

Cari ilin birinci yarısında regionda fəaliyyət göstərən Elmi müəssisələrin, Elmi Tədqiqat Əkinçilik İnistitutunun regionda yaratdığı təcrübə sahələrinə 1047 nəfərin və ailə kəndli fermer təsərrüfatlarına məxsus və RMM-in dəstəyi ilə ÖM-lər vasitəsilə yaradılmış təcrübə sahələrinə 4346 nəfərin tarla-ferma nümayişi təşkil edilmişdir.

Lakin ilin əvvəlindən keçən dövr ərzində yanacaq daşıyıcılarının qiymətlərinin kəskin artması və infilyasiyanın səviyyəsinin getdikcə yüksəlməsi ofis və tədris ləvazimatlarının və Layihənin icraçı ilə əlaqədar alınması tələb olunan yanacaq, elektrik enerjisi, mal-materialların qiymətlərinin 20-100 % bahalaşmasına səbəb olmuşdur.

Eləcədə Mərkəzi ofisin, Kənd Təlim Mərkəzlərinin müqavilədə nəzərdə tutulan qiymətlərlə icarəyə götürülməsində, müdavimlərə çay xidmətinin göstərilməsi, tədris prosesi ilə əlaqədar ləvazimatların alınması, rabitə, kommunal və digər xərclərin, informasiya materiallarının çap edilməsi, fermerlərin Elmi Tədqiqat İnistitutlarının mütərəqqi Texnologiyaların və təcrübələrinin tətbiqi ilə əlaqədar nümayiş sahəsinə aparılması üzrə nəqliyyat xərclərinin ödənilməsində ciddi çətinliklər yaratmışdır. İnfilyasiyanın artması Mərkəzin işçilərinin və ÖM-lərin xidmət haqları ilə uzlaşmadığına görə onlarda narazılıq yaranır ki, bu da işin keyfiyyətinə mənfi təsir göstərir.

"Şəki RMM" MMC-nin kollektivi bütün səyləri birləşdirərək Agentliklə bağlanmış müqavilənin texniki tapşırığına və informasiya məsləhət xidmətlər komponentinin " Kənd Təsərrüfatı Yayım xidmətlərinin idarə edilməsi üzrə Əməliyyat Təlimatı" nın tələblərinə uyğun fəaliyyətini davam etdirəcək və qarşıya qoyulan vəzifənin öhdəsindən layiqincə gəlməyə çalışacaqdır.

**"Şəki Regional Məsləhət Mərkəzi"**

**MMC-nin direktoru: Ə.Əlifov**